# Azərbaycan reallığında Heydər Əliyev epoxası

**Qəzənfər Paşayev**
Əməkdar elm xadimi, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Məqalədə Ümummilli liderin Azərbaycan xalqının taleyində oynadığı əvəzolunmaz tarixi xidmətləri haqqında müfəssəl məlumat verilir. Milli-mədəni sərvətlərimzin qorunması və təbliği sahəsində qazanılmış uğurlarda onun xidmətlərindən söhbət açılır. Müəllif belə bir faktı xüsusi vurğulayır ki, şifahi xalq ədəbiyyatımızın başlanğıcı olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi barədə Heydər Əliyevin 1997-ci ildə imzaladığı fərman bu dastanın bütün türk dünyasına məxsus olduğunu bütün dünyaya bəyan etdi. Müəllifin qənaətinə görə, dahilər dünyaların dəyişsələr də, onların fikir və ideyaları aktuallığını itirmir, bütün zamanlar üçün gərəkli olur.
**Açar sözlər:** Ulu öndər, Azərbaycan Respublikası, İlham Əliyev, "Kitabi-Dədə Qorqud", ana dili, türk dünyası

## Heydar Aliyev epoch in the reality of Azerbaijan

**Gazanfar Pashayev**
Honored Scientist, professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** In the article it is provided detailed information about the invaluable services of the National leader in the fate of Azerbaijani people. It is mentioned about his merits in the achievements gained in the field of promotion and protection of our national-cultural resources. The author highlights such a fact that the decree on holding the 1300th anniversary of "The Book of Dada Gorgud", the beginning of our folk literature, signed by Heydar Aliyev in 1997 proves that this epic belongs to all Turkish world. According to the author, even though geniuses pass away, but their ideas and thoughts do not lose their relevance and are important for all times.
**Keywords:** Great leader, Republic of Azerbaijan, Ilham Aliyev, "The Book of Dada Gorgud", native language, Turkish world

Mən o xoşbəxt adamlardanam ki, mənə Ulu öndərimizin hakimiyyətdə olduğu bütün zamanlarda onun titanik fəaliyyətini izləmək və xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlərinin şahidi olmaq qismət olub.

Yaradan Heydər Əliyevə bitib-tükənməyən enerji bəxş etmişdi. O, bu enerjini bütövlükdə Azərbaycan xalqının rifahına həsr etmişdi. Xalqımızı, mədəniyyətimizi dərindən sevirdi. Təsadüfi deyildir ki, əslən Bakıdan olan, Sovet dövründə SSRİ Nazirlər Sovetinin Dövlət Plan Komitəsinin sədri işləmiş Nikolay Baybakov demişdir: **"Mən Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci bir adam tanımıram".**

Heydər Əliyev Azərbaycan reallığında böyük hadisədir. Çəkinmədən Azərbaycanın keçən əsrin 70-ci illərindən sonrakı dövrünü iki mərhələyə bölmək olar: Heydər Əliyev epoxası, İlham Əliyev erası.

Heydər Əliyev epoxası hər şeydən əvvəl onunla əlamətdar oldu ki, Ulu öndərimiz ağır vaxtlarda Azərbaycan xalqının taleyinə cavabdehlik missiyasını vicdanla, ləyaqətlə yerinə yetirdi və onun xilaskarına çevrildi. Onun xalq qarşısında, dövlət qarşısında xidmətləri ölçüyəgəlməzdir.

Ümummilli liderin bütün xidmətlərini bir yana qoysaq, təkcə XX əsrin 90-cı illərində xalqı vətəndaş qarşıdurmasından, dövləti parçalanmaqdan xilas etməsi böyük tarixi hadisə idi.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də bəzi ölkələrdə baş verən daxili çəkişmələr, çevrilişlər nəticəsində dövlətin dayaqlarının laxladılması, oyuncaq dövlətə çevrilməsi kimi çox qorxulu halın Azərbaycanda baş verməsinin qarşısını müdrikliklə alması olmuşdur.

Xalqının tarixi müqəddəratında müstəsna rol oynayan bu dahi şəxsiyyət, sanki xalqımızın milli qurtuluşunu təmin etmək üçün Böyük yaradan tərəfindən göndərilmiş xilaskardır. Yaradan hər adama zəka, kəskin ağıl, fitri istedad, analitik təfəkkür, qabiliyyət, rəhbərlik etmək bacarığı bəxş etmir. Bunu yalnız inamlı, imanlı, seçilmiş bəndələrinə verir. O, Yaradanın seçilmiş bəndələrindən idi.

Mən bir filoloq kimi daha çox Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması və təbliğində gördüyü möhtəşəm işlərdən söz açmaq istərdim. Mülahizələrimi müxtəlif vaxtlarda ürəyimin istəyi ilə yazdığım "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz", "Heydər Əliyev haqqında Nostradamusun görücülüyü", "Xilaskar", "Tarix qurub-yaradanları yaşadır", "Heydər Əliyev və ədəbiyyatşünaslıq elmimizin təntənəsi", "Xoş məramla, saf niyyətlə" məqalələrimdə, eləcə də Heydər Əliyev və İlham Əliyevə həsr etdiyim Güney Azərbaycanda və vətənimizdə çap olunan "Xilaskarlar" kitabımda öz əksini tapıb.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycançılıq ideologiyasını formalaşdırması olmuşdur. "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərləri, adət-ənənələri yaşatmalıyıq", – deyirdi.

Ulu öndərimiz haqlı olaraq göstərirdi ki, dil yalnız bir mənəviyyat problemi deyil, Azərbaycan ideologiyasının təməl problemidir. O, Azərbaycan dilinin taleyinə millətin və dövlətin taleyi müstəvisindən baxırdı. Qeyd edirdi ki, müstəqil Azərbaycan Respublikasının gələcəyi naminə ana dilimizi, dövlət dilimizi inkişaf etdirməliyik...

"Xalqı xalq edən, milləti millət edən ana dilidir... Öz ana dilini bilməyən şəxs şikəstdir. Xalqın milli kimliyinin göstəricisi dili, ədəbiyyatı, musiqisi, tarixi, ənənəsidir", – deyirdi.

Təsadüfi deyildir ki, Sovet İttifaqı dağılanda Sovetlər Birliyindəki türkdilli dövlətlər arasında Heydər Əliyevin səyi nəticəsində latın əlifbasına keçən ilk dövlət Azərbaycan oldu.

Öndərimizin xalqı yaşadan, yaddaşını kütləşməyə qoymayan dil məsələsinə münasibəti bir hadisədə də özünü bariz şəkildə göstərdi.

Yazıçıların qurultayında professor Tofiq Hacıyev dil məsələsini irəli sürəndə çoxları bunu dərk etmədi, yersiz saydı. Qurultayın işində əvvəldən axıra kimi iştirak edən Heydər Əliyev (O, yazıçıların bütün qurultaylarında fəal iştirak edirdi. Hətta Moskvada SSRİ Nazirlər Soveti sədrinin I müavini kimi çox yüksək vəzifədən çıxıb canından çox istədiyi vətənimizə qayıdandan sonra yazıçıların Filarmoniyada keçirilən qurultayında iştirak etdi) çıxışında Tofiq Hacıyevin çıxışına reaksiya verdi və tezliklə Dövlət Dil Komissiyası yaradıldı.

Öndərimiz yazıçı və şairlərimizi yüksək qiymətləndirirdi. Onları ədəbi dil normalarının, nitq mədəniyyətinin qanunvericiləri, qurucuları adlandırır, milli sərvətimiz hesab edirdi.

Yaradıcı adamları "özgə dəyirmanına su tökən bədxahlar"dan, "sapı özümüzdən olan baltalar"dan qoruyurdu.

Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza kimi görkəmli şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq mənəviyyatsızlıqdır, – deyirdi.

Hələ bu az imiş kimi, söz-sənət adamlarını biri-birinə qarşı qoyanlar deyirdilər ki, nə üçün Hüseyn Cavid, Seyid Hüseyn, Əhməd Cavad, Mikayıl Müşfiq və s. repressiyaya məruz qalıblar, amma başqaları yox?!

Heydər Əliyev belə yanlış və ziyanlı yanaşmanın yolverilməz olduğunu əməli işində göstərirdi. Ədəbiyyatımızı, mədəniyyətimizi xalqımızın mədəni sərvəti, intellektual mülkiyyəti hesab edirdi. Xalq qarşısında əvəzsiz xidmətləri olan yazıçı və şairlərdən Süleyman Rəhimovun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Mirzə İbrahimovun Sosialist Əməyi Qəhrəmanı kimi çox yüksək ada layiq görülməsinə nail oldu.

Heydər Əliyev folklorumuza da xüsusi qayğı göstərirdi. Folklorumuz barədə heyrətamiz bələdliklə mülahizələr yürütməsi, məsələnin kökünə nüfuz etməsi onun fitri istedadından və milli-mənəvi dəyərlərimizə tükənməz məhəbbətindən irəli gəlirdi. Bu, təsadüfi deyildi. Milli-mənəvi dəyərlər folklorla başlayır. Folklor insanın damarlarında axan canlı qan yaddaşıdır.

Xüsusi vurğulamağa dəyər ki, şifahi xalq ədəbiyyatımızın başlanğıcı, tükənməz enerji mənbəyi "Kitabi-Dədə Qorqud" Ulu öndərimizin sayəsində layiqli yerini tutdu. 1997-ci il aprelin 20-də abidənin 1300 illiyinin keçirilməsinə dair fərman imzaladı. Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, "Kitabi-Dədə Qorqud"un 1300 illik tarixi olduğunu dünyaya nümayiş etdirdik. Ulu öndərimiz fərmanla bağlı mülahizələrini belə qiymətləndirdi: "Bu fərmanla biz bildirdik ki, "Kitabi-Dədə Qorqud" bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir".

Türkdilli Dövlətlərin başçılarının VI Zirvə toplantısına gəlmiş prezidentlərin qatıldığı Beynəxalq "Kitabi-Dədə Qorqud" konfransının təntənəli açılış mərasimində (9 aprel 2000-ci il) Heydər Əliyev "Milli varlığımızın mötəbər qaynağı" adlı məruzə ilə çıxış etdi. O, göstərdi ki, "Kitabi-Dədə Qorqud" bizim ana kitabımız, həm də etika kitabımız, əxlaq kodeksimizdir. Ulu öndərimizin 20 aprel 2000-ci il tarixli fərmanı, özünün qeyd etdiyi kimi, bir çox gələcək illər, onillikər üçün böyük perspektiv açmışdır. Bu tədbirlər nəşrlər içərisində ən önəmlisi iki böyük həcmli cilddən ibarət "Dədə Qorqud" ensiklopediyasıdır. Dövlət başçısı bu möhtəşəm abidəyə dərin məzmunlu ön söz yazmışdır.

Yeri gəlmişkən, Ümummilli liderimiz "Kitabi-Dədə Qorqud"un tədqiqi və təbliğində Xalq yazıçısı Anarın əməyini yüksək qiymətləndirmiş, abidənin 1300 illik yubileyinin keçirilməsi və "Dədə Qorqud" ensiklopediyasının yaradılması ideyasının Anara məxsus olduğunu göstərmişdir.

Heydər Əliyev xalq üçün iki təhlükənin olduğunu görürdü: birincisi qınına qapanıb qınından çıxmamaq, ikincisi isə qınından çıxıb qınını bəyənməmək. O, hər iki neqativ hala qarşı əməli işləri ilə mübarizə aparırdı. Bir yandan Aşıq Ələsgərin 150 illik yubileyinin Moskvada – Qurultaylar Sarayında keçiriləsinə nail olurdu, digər tərəfdən filarmoniyada cümə günləri dünya klassik müsiqi konsertlərinin keçirilməsinə rəvac verirdi. Çox vaxt bu konsertlərdə şəxsən iştirak edirdi.

Danılmaz həqiqətdir ki, bəşəriyyətin yolu millilikdən keçir. Lakin bu, boz kütlə səviyyəsində olmamalıdır. Ulu öndərimiz deyirdi: "Mənim siyasətim həmişə azərbaycançılığı, milliliyimizi möhkəmləndirməkdən ibarət olmuşdur".

Heydər Əliyev Nəsimi və Füzulinin yubileylərini beynəlxalq miqyasda keçirməyə nail olmuşdu. O, xüsusi vurğulayırdı ki, yubileylərin keçirilməsi bir tətəfdən onların xalq qarşısında xidmətlərinə verilən qiymətdir, digər tərəfdən xalqın zənginliyini nümayiş etdirməkdir.

Ölkədə vəziyyət ağır olduğu, xəzinədə pul, dəyirmanda un qıt olan 1994-cü ilin sentyabr ayında İraqa Füzulinin 500 illik yubileyinə 128 nəfərdən ibarət ədəbiyyat və incəsənət nümayəndələrini göndərdi. Həmin ilin noyabr ayında isə Füzulinin yubileyinə Ankaraya bizi öz təyyarəsində apardı.

Budur, Ümummilli liderimizin yazıçı və şairlərimizə, onların yaradıcılığına, ümumiyyətlə, mədəniyyətimizə verdiyi qiymət.

Görkəmli elm, mədəniyyət nümayəndələrinin, qələm sahiblərinin ev muzeylərinin yaradılması, 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası və Şüvəlanda tikilən Yazıçıların Yaradıcılıq Evi, eləcə də İçərişəhərdə tikilən Ensiklopediyanın binası, Nəsimi, C.Cabbarlı, Qara Qarayev, Fikrət Əmirovun heykəllərinin ucaldılması, Nəsimi Füzuli, Vaqif, M.F.Axundzadə, Ü.Hacıbəyli, C.Məmmədquluzadə, H.Cavid, S.Vurğun və başqalarına həsr olunmuş tədbirlər onun adı ilə bağlıdır.

Yazıçılar İttifaqında Cənubi Azərbaycan Ədəbiyyatı problemləri üzrə şöbənin və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin yaradıması da Ulu öndərin adı ilə bağlıdır. Bu, Heydər Əliyevin əzmkarlığı və cəsarəti sayəsində mümkün olmuşdur. Sovet dönəmində belə bir addımı xalqımızı və ədəbiyyatımızı tükənməz məhəbbətlə sevən adam ata bilərdi.

Məlumdur ki, Azərbaycan Respublikası çoxmillətli ölkədir. Burada ruslar, lahıclar, talışlar, udinlər, yəhudilər, ermənilər, ləzgilər, avarlar, kürdlər, xınalıqlar, yengiloylar və s. toplu halda yaşayırlar.

Heydər Əliyevin fəxarətlə söz açdığı bu etnosların hər birinin özünəməxsus xüsusiyyətləri – dili, dini, adət-ənənəsi əsrlərlə öncə olduğu kimi qalır və Azərbaycan xalqının mənəvi mədəniyyətini zənginləşdirir.

Heydər Əliyev fenomeni siyasi təlatümlər və dəyişikliklərlə zəngin olan XX əsrdə hər vaxt dünya liderlərinin diqqət mərkəzində olmuş, bu dahi şəxsiyyətin yarım əsrlik fəaliyyətini yüksək qiymətləndirmişlər.

Onların arasında dünyanın gedişatında rol oynayan şəxsiyyətlərin adını görmək məmnunluq gətirir:

Corc Buş (oğul) – Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti, Toni Bleyer – Böyük Britaniyanın keçmiş baş naziri, Jak Şirak – Fransa Respublikasının keçmiş prezidenti, Kralica II Yelizaveta, Məhəmməd Xatəmi – İranın keçmiş prezidenti, II İohan Pavel – keçmiş Roma Papası, eləcə də tanınmış başqa dövlət başçıları: Süleyman Dəmirəl, Vladimir Putin, Rəcəb Tayyib Ərdoğan, Nursultan Nazarbayev, İslam Kərimov və bir çox başqaları. Onların fikirləri Heydər Əliyevin dünyada qəbul edilmiş liderlərdən biri olmasına dəlalət edir.

Heydər Əliyev epoxasının, İlham Əliyev erasının reallıqlarının, eləcə də Qarabağ müharibəsinin Nostradamusun görücülüyündə öz əksini tapması böyük tarixi həqiqətlərdən xəbər verir. (bax: Qəzənfər Paşayev. Nostradamusun möcüzəli aləmi. Bakı, "Təhsil", 2007, səh.17-18, 352, 362, 410).

Ulu öndərimiz haqqında bu məqalə üzərində işləyərkən bir daha özüm üçün kəşf etdim ki, dahilər dünyalarını dəyişirlər, lakin onların fikir və ideyaları yaşayır, aktuallığını itirmir, bütün zamanlar üçün gərəkli olurlar.

Möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə 2023-cü il Heydər Əliyev ili elan edilib. Bu, bizə imkan verir ki, Ümummilli liderimizin gördüyü möhtəşəm işlərə bir daha nəzər salaq, onun böyüklüyünə və müdrikliyinə heyranlığımızı nümayiş etdirək.

## Эпоха Гейдара Алиева в реалиях Азербайджана

**Газанфар Пашаев**
Заслуженный деятель науки, профессор
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме**. В статье представлена подробная информация о неоценимых заслугах Общенационального лидера в судьбе азербайджанского народа. Отмечается его достижения в области пропаганды и защиты наших национально-культурных ресурсов. Автор подчеркивает, что подписанный Гейдаром Алиевым в 1997 году указ о праздновании 1300-летия «Китаби-Деде Горгуд», самый древний памятник народной литературы, доказывает принадлежность этого эпоса всему тюркскому миру. По мнению автора, хотя гении и уходят из жизни, их идеи и мысли не теряют своей актуальности и всегда важны.
**Ключевые слова**: Великий лидер, Азербайджанская Республика, Ильхам Алиев, «Китаби-Деде Горгуд», родной язык, тюркский мир